# İdman xəbərləri

## Stend atıcılığı üzrə Beynəlxalq yarış

"Qəbələ" Atıcılıq Klubu növbəti dəfə möhtəşəm idman yarışlarından birinə ev sahibliyi edəcək.

Rayonumuzda mayın 7-dən 13-dək ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş stend atıcılığı üzrə Beynəlxalq Qran-Pri yarışları keçiriləcək. "Qəbələ" Atıcılıq Klubunun təşkilatçılığı, Azərbaycan Atıcılıq Federasiyasının, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə keçiriləcək yarışlarda 8 ölkədən 100-ə yaxın idmançı, eləcə də rəsmi qonaqlar iştirak edəcək.

"Qəbələ" Atıcılıq Klubunun idman bazası olan stend və ox atıcılığı kompleksində təşkil ediləcək beynəlxalq yarışın iştirakçıları arasında dünyanın tanınmış atıcıları, dünya və Avropa çempionları, Olimpiya oyunlarının qalibləri olacaq.

Bir həftə davam edəcək mötəbər yarışda idmançılar 6 dəst medal uğrunda mübarizə aparacaqlar. Yarışın rəsmi açılış mərasimi mayın 8-də keçiriləcək.




## «Qəbələ»dən böyükhesablı qələbə- 3:0

"Qəbələ" Topaz Premyer Liqasında növbəti oyununu keçirib. "Qırmızı-qaralar" XXV turun bu gün keçirilən görüşündə "Kəpəz"lə qarşılaşıb. Komandamız çempionatın autsayderini Qəbələ şəhər stadionunda qəbul edib və həmyerlilərimiz oyunda üç cavabsız qol vuraraq "Kəpəz" üzərində böyükhesablı qələbə qazanıb.

Qarşılaşmanın taleyi ilk yarıda həll olunduğundan fasilədən sonra meydanda mübarizə nisbətən sakit məcrada davam edib. Hər iki komanda topa nəzarət etməyə çalışsa da, yaddaqalan hücumlar yaratmayıb.

## Şahmat festivalı

Bu günlərdə Qəbələdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci il dönümünə həsr olunmuş şahmat festivalı keçirilmişdir.

Festivalı rayon uşaq-gənclər idman-şahmat məktəbinin direktoru Ədalət Əliyev açaraq, qonaqlara, valideynlərə və şagirdlərə tədbir haqqında ümumi məlumat vermişdir.

Sonra çıxış edən rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov ulu öndər Heydər Əliyevin idmana, o cümlədən şahmata olan qayğısından, bu gün ulu öndərin idmana göstərdiyi diqqətin ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışaraq təşkilatçılara və şahmatçılara uğurlar arzulamışlar.

Təntənəli açılışdan sonra 113 şahmatçının qatıldığı yarışları beynəlxalq dərəcəli idman ustası Araz Alməmmədovun rəhbərlik etdiyi hakimlər heyəti idarə etmişlər.

Sonda yarışların qalibləri diplomlarla təltif olunmuşlar.

**«Qəbələ»**

## Voleybol birinciliyi

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən silsilə tədbirlərdən biri də 2000-2003-cü il təvəllüdlü məktəblilərin voleybol üzrə rayon birinciliyi yarışlarıdır.

Yarışlarda müxtəlif məktəblərdən 22 komanda iştirak etmişdir. Final mərhələsi şəhər 1 saylı tam orta məktəbin idman zalında keçirilmişdir. Yenikənd və Xırxatala kənd tam orta məktəblərinin komandaları arasında olan qarşılaşmanı idman ustası Kamran Cabbarov idarə etmişdir.

Xırxatala kənd tam orta məktəbini təmsil edən voleybolçular daha yaxşı oyun nümayiş etdirərək 3:1 hesabı ilə qələbə çalmış və yarışların qalibi adını qazanmışlar.

Sonda qalibləri rayon uşaq-gənclər idman-şahmat məktəbinin direktoru Ədalət Əliyev təbrik etmişdir. O, qalib komandanın bu ilin may ayında Ağdaş şəhərində keçiriləcək zona yarışlarında iştirak edəcəyini bildirmişdir.

**Nəzakət ƏLİZADƏ.**

# Şəfalı bitkilər

## Ağ turpun bilmədiyimiz faydaları

***Bu tərəvəz nadir xüsusiyyətlərə malikdir. Fitonsidlərlə zəngin olan ağ turp immuniteti möhkəmləndirir, orqanizmin virus və mikroblara qarşı davamlılığını artırır.***

Ağ turp həzm proseslərini sürətləndirir, iştahanı artırır, qəbizliyi aradan qaldırır. Lakin mədə-bağırsaq sisteminin ciddi pozulmaları zamanı (xüsusilə kəskinləşmə dövründə) turpu qəbul etmək tövsiyə edilmir. Turp həmçinin köpə səbəb ola bilər. Bu səbəbdən köpə meyilli olan insanların bu tərəvəzdən istifadə etməməsi məsləhətdir.



Xüsusilə qış aylarında ağ turpu öz qidalanmanıza daha tez-tez daxil edin. Turpdan çox sadə, eyni zamanda dadlı və faydalı salatlar düzəltmək olar. Bunun üçün sürtgəcdən keçirilmiş turp, kök və xırda doğranmış cəfəri qarışdırılır. Salata duz və istiot (zövqə görə) vurulur və yaxşı qarışdırılır. Daha sonra zeytun yağı əlavə olunur və salat yenə də yaxşı qarışdırılır. Fantaziyanıza görə digər inqrediyentlərdən də istifadə edə bilərsiniz (xiyar, kələm, göbələk, alma və s.), həmçinin salata xama da əlavə etmək olar.

Ağ turp həmçinin müxtəlif vitaminlər (B qrupu, C, E, PP), mikroelementlər (kalium, kalsium, maqnezium, fosfor, kükürd, yod və s.), aminturşular, fermentlər və s. faydalı maddələrlə zəngindir.

Öskürək və bronxit xəstəlyi zamanı ağ turpun şirəsi çox yaxşı müalicəvi effekt verir. Axşamdan turpun içini oyun və oyuğa bal tökün. Səhər isə alınmış şirəni qəbul edin. Bu şirə çox effektli bəlğəmgətirici və iltihabəleyhinə təsir edir. Əgər sizdə bala allergiya varsa, şəkər tozundan istifadə edin.

Turp ödqovucu və sidikqovucu təsirlərinə də malikdir.

Bu tərəvəz mübadilə proseslərini yaxşılaşdırır, qalxanvari vəzin fəaliyyətinə müsbət təsir edir

Ağ turp həmçinin kosmetologiyada da geniş istifadə olunur. Ondan hazırlanan maskalar üz dərisini ağardır, çilləri və piqment ləkələrini təmizləyir, dərini cavanlaşdıraraq daha elastik edir.

Belə maskaların bir variantı: ağ turpun bir tikəsi sürtgəcin kiçik gözündən keçirilir, üzərinə 1 xörək qaşığı xama əlavə olunur, qarışdırılır və təmiz üz dərisinə çəkilir. 15 dəqiqədən sonra maskanı ılıq su ilə yumaq lazımdır. (İstifadə etdikdən əvvəl maskanı üz dərisinin kiçik hissəsinə çəkin - qızarma, qaşınma və s. olmazsa, istifadə edə bilərsiniz.)

Saçların tökülməsi ilə mübarizədə də ağ turpun şirəsindən istifadə etmək olar. Onun şirəsi saç follikullarını möhkəmləndirir, saçların uzanmasını stimullaşdırır.

# Bunları bilmək maraqlıdır

✦ 1903-cü ildə cəmi 100 dollara çəkilmiş "Qatarın oğurlanması" filmi kinematoqrafiya tarixində ən ucuz ekran əsəridir. Onun gətirdiyi gəlir isə 20 min dollara çatıb.

✦Ürəyin işləməsini yazan ilk elektrokardioqrafiya cihazını 1903-cü ildə Vilhelm Eyndhoven quraşdırıb. Buna görə ona 1924 - cü ildə tibb üzrə Nobel mükafatı verilib.

✦İlk kitabxanalar eramızdan əvvəl yaradılıb. Ən qədim kitabxanalardan birinin Asurhökmdarı tərəfindən qurulduğu məlumdur. Hökmdar kitabxansındakı kitablar üzəri şiş uclu alətlə yazılmış gil lovhələr olub.

✦Gündə iki dəfə istiqamətini dəyişən küləyə sahil küləyi deyilir.

✦İnsan həyatı boyu təxminən min dəfə dərisini dəyişir.

✦Nobel mükafatı laureatlığına namizəd barəsində sorğu hər nominasiya üzrə həmin sahənin təqribən üç min nəfər tanınmış mütəxəssisinə göndərilir.

✦Dünyada ən populyar ad - Annadır, bu adı 100 milyona yaxın insan daşıyır.

✦Yaponiyada və Honşu adalarını birləşdirən Akaci Kaikyo körpüsü dünyanın ən uzun asma körpüsüdür.

✦Təmiz su 33°C-dək donmur, +200°C-dək isə qaynamır.

✦Pinqvinlər 530 metr dərinliyə, 27 kilometr məsafəyə üzə və sudan 1,80 metr hündürlükdə olan sahilə tullana bilirlər.

**Topladı: Səfa ASLANOV.**

# İTMİŞDİR

Hacıalılı Bələdiyyəsinin 29 iyun 2007-ci il tarixli 05 saylı qərarı ilə Hacıalılı kənd sakini **Ağayev Saməddin Gülmet oğluna** verilmiş **torpaqların alqı-satqısına dair akt** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Dövlət Notarial Kontorunun 30 mart 2006-cı il tarixli 4Ə-1461 saylı alqı-satqı müqaviləsi ilə Daşca kənd sakini **Məmmədov Qiyas Bəxtiyar oğluna** verilmmiş JN seriyalı 315 nömrəli (kod 40608028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 05 fevral 1999-cu il tarixli 03 saylı qərarı ilə Nic qəsəbə (kənd) sakini **Canari Rafik Avanesoviçə** verilmiş JN seriyalı 134 F nömrəli (kod 40600068) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Mıxlıqovaq kənd sakini **Səmədov Vaqif Dosəmməd oğluna** verilmiş JN seriyalı 800 nömrəli (kod 40614018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibrsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Kötüklü kənd sakini **Nəbiyev Mahir Nəbi oğluna** verilmiş JN seriyalı 0020 nömrəli **torpağın mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

«Qəbələ» qəzeti redaksiyasının kollektivi iş yoldaşları **İlkin Vəlizadəyə** dayısı,

**ELXANIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Əhəd Kərimxanov, Emin Ədilli, Mehrəli Mehrəliyev, Rasim Yaqubov, Əlövsət Aləmmədov, **Eldar, Xanadan, Ədalət, Laçın, Kamran Quliyevlərə** əzizləri

**HƏMDİYƏ EYVAZ OĞLUNUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1769